# X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİ FORMALAŞDIRMAQ BAXIMINDAN SÖHBƏTLƏRDƏN İSTİFADƏ TƏCRÜBƏSİNDƏN

**Emilya Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*elmlər doktoru hazırlığı üzrə dissertant*
*ARTPİ*
E-mail: emilya.huseynova95@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *söhbət, yuxarı sinif şagirdi, sinifdənxaric tədbirlər, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması*

***Ключевые слова****: беседа, старшеклассник, внеклассные мероприятии, гражданство, гражданская позиция, активная гражданская позиция, формирование гражданской позиции*

***Key words****: conversion, senior pupil, extra-curricular activities, citizenship, civil position, active citizenship, formation of citizenship*

Sinifdənxaric işin mühüm formalarından biri də söhbətdir. Ümumtəhsil məktəblərində söhbətlər bu və ya digər etik, mənəvi, estetik, milli və şəxsi şərəf və ləyaqət, milli mənlik şurunun formalaşdırılması, müstəqil ailə həyatına hazırlıq, tolerantlıq və s. mühüm məsələlərə həsr olunur. Söhbətlər milli tərbiyənin ayrı-ayrı sahələri və istiqamətlərini özündə birləşdirən mövzulara aid olur. Apardığımız tədqiqatla bağlı eksperimentə cəlb etdiyimiz yuxarı sinif şagirdləri ilə eyni zamanda onlarda vətəndaşlığın, fəal vətəndaşlıq mövqeyinin, vətənpərvərliyin formalaşdırılmasına və inkişaf etdirilməsinə yönəlmiş söhbətlər də aparılır, mövzu ilə bağlı onların fikirləri, qənaətləri öyrənilirdi.

Sinifdənxaric tədbirlər zamanı çalışırdıq ki, hər bir söhbət inandırıcı, maraqlı olsun, şagirdləri darıxdırmasın, yormasın. Fənn müəllimləri, sinif rəhbərləri, kitabxanaçı qabaqcadan ciddi hazırlaşır, məktəblilərin diqqətinə hansı məsələləri çatdıracağını, hansı nümunələr üzərində dayanacağını müəyyən edirdilər. Lazım gəldikcə tanınmış şəxslərin, mütəfəkkirlərin, yazıçı və şairlərin fikirlərinə əsaslanmaq söhbətlərin tərbiyələndirici təsirini artırırdı.

Məktəblərin birində aparılmış "Tarixdə erməni dövləti olubmu? İrəvan necə Ermənistanın paytaxtı oldu? Mövzusunda söhbət maraqlı, X-XI sinif şagirdlərinin fəallığı şəraitində keçmişdir. Müəllim söhbətə aşağıdakı giriş sözü ilə başlamışdır:

Dağlıq Qarabağ münaqişəsindən, Ermənistanda və Azərbaycanın rayonlarında azərbaycanlıların başına gətirilən müsibətlərdən danışdıq, münasibətimizi bildirdik. Tarixin araşdırılmasından görünür ki, "Böyük Ermənistan" xülyaları ilə yaşayan və vəhşiliklər, qırğınlar, qətllər törədən ermənilərin nə dövləti, nə də paytaxtı olub. Bəs birdən-birə necə dövlət qurublar, İrəvan xanlarının hakimiyyəti altında olan İrəvan necə olub ki, birdən-birə Ermənistan deyilən "dövlət"in siyasi mərkəzinə, paytaxtına çevrilib?

Yuxarı sinif şagirdləri həmin suala aydınlıq gətirirlər:

Şagird Gülər: -Azərbaycan Milli Şurası 29 may 1918-ci ildə bir iclas çağırmış, burada Ermənistanın siyasi mərkəz məsələsini gündəmə gətirmişdir. İclasda Azərbaycan və Ermənistan sərhədləri ilə bağlı Ermənistan Milli Şurası ilə aparılan danışıqların nəticələri barədə Fətəli Xan Xoyski məlumat verdi. Göstərdi ki, Ermənistan Federasiyasının formalaşdırılmasından ötrü siyasi mərkəzin yaradılması tələb olunur. İsgəndəriyyə şəhəri Türkiyəyə birləşdirilib. Ermənistan üçün siyasi mərkəzin İrəvan olması mümkündür. Odur ki, biz istər-istəməz İrəvanı ermənilərə güzəştə getməliyik. Fətəli Xan Xoyskinin təklifi ciddi müzakirələrə səbəb olmuşdur.

Şagird Nəzakət: -Həmin vaxtlar Cənubi Qafqaz Seyminin dağılmışdı. Üç müstəqil dövlətin (Azərbaycan, Gürcüstan, Ermənistan) yaranacağı nəzərdə tutulurdu. Əgər öz didişmələri, razılığa gələ bilməmələri səbəbindən dövlət ya-

rada bilməsəydilər, o zaman regionun İran, Türkiyə və Rusiya arasında bölünməsi barədə konkret şərt irəli sürülmüşdü. Batumi konfransında fikir ayrılığı olduğu təqdirdə Azərbaycanın bir hissəsi İrana, bir hissəsi Rusiyaya, digər hissəsi isə Türkiyəyə veriləcəkdi. Gürcüstan Türkiyə və Rusiya arasında bölünəcək, Ermənistan isə Türkiyəyə veriləcəkdi.

Çikaqo Universitetinin siyasi elmlər kafedrasının professoru Ronald Qriqorun sözləridir: "İrəvan Batumi konfransına qədər müsəlman şəhəri idi" (1, 5).

Şagird Səmayə: -Erməni tarixçisi və kahin Hovannes Şahxatunyanın fikri ilə tanış olmaq məqsədəuyğundur. Şahxatunyan göstərirdi: "390 il (1441-1828) İrəvan xanlığını idarə edən 49 xanın hamısı Azərbaycan türkü olub. Hətta İrəvan xanlığının ərazisində yerləşən, bu gün də quldur yuvası kimi fəaliyyət göstərən erməni katolik kilsələrinin keşişlərini də İrəvan xanları təyin edirdilər. Xanların adları olan siyahı Erməni Sovet Ensiklopediyasında öz əksini tapıb".

Şagird Ofelya: -Mən polkovnik S. Burnaşevun məktubunu xatırlatmaq istəyirəm. Burnaşevun 1787-ci il 8 iyul tarixli məktubunda general P.S. Potyomkinə xəbər verirdi ki, Osmanlı sultanı Azərbaycan xanlarını həmişə müdafiə edəcək, İrəvan şəhəri Azərbaycana məxsus olduğundan onun heç zaman Gürcüstanın tabeliyinə verilməsinə razı olmayacaq. Bundan əlavə, sultan Ərzurum paşasına və digər həmsərhəd paşalara, nəyin bahasına olursa-olsun, rus qoşunlarının qarşısına çıxmağı əmr etmişdir. Regionda siyasi durumun gərginləşməsi ilə əlaqədar Ömər xan, qarabağlı İbrahimxəlil xan və digər Azərbaycan xanları İrəvanı qəti surətdə gürcülərin təzyiqlərindən xilas etmək üçün birləşmişlər (2).

Şagird Gülşən: -Həmin zamanlar ermənilər özləri üçün vaxtilə Aleksandropol adlanan indiki Gümrü şəhərini mərkəz etmək istəyirdilər. 1918-ci ilin martında V.İ. Leninlə almanlar arasında Brest-Litovsk sülh müqaviləsi imzalanmışdı. Müqaviləyə əsasən, Qars və Ərdahandan başqa Aleksandropolu da Osmanlıların nəzarətinə keçdiyindən ermənilər paytaxtsız qalmışdılar. Odur ki, ermənilər xahiş edirdilər ki, İrəvan siyasi mərkəz kimi onlara verilsin.

F.X. Xoyski, M. Cəfərov, M. Hacınski, A. Mahmudbəyov, F.Köçərlinski, M. Yeqanov, R. Vəkilov, H. Şahtaxtinski, A.Axundov, M.K. Məmmədbəyov, X.Məlik-Aslanov, C.Hacınski, C.A.Ağamalov, Şərifov iştirak etdiyi iclasa sədrliyi Həsənbəy Ağayev edirdi.

Şagird Nigar: -1918-ci ilin mayın 28-də Milli Şuranın səhər toplantısında Erməni Xalq Partiyasının nümayəndəsi M. Papacanovun çıxışın bu barədə aydın təsəvvür yaradır. M. Papacanov tərəfləri hərbi əməliyyatlara son verməyə səsləyərək, deyirdi: müvəqqəti sülh xalqı faciələrdən xilas edə bilər və sülh dövründə "erməni məsələsi" ümumavropa konqresində öz həllini tapa bilər: "Sülhün mövcudluğu bizə imkan verər ki, biz kiçik də olsa, öz milli ərazimizi yaradaq. Bu da gələcəkdə millətimizin inkişafına zəmin verəcəkdir" (6).

Şagird Gülnarə: -1918-ci il mayın 28-də Batumidə aparılan danışıqlarda Vehip paşa bildirdi: "Ermənilərin tələbini az da olsa qane etmək məcburiyyətindəyik. Hər halda, onlara bir ərazi verməyə məcburuq".

Şagird Ziülfiyyə: -Ermənilər ayrılan sahə Yeni Bəyazid və Üçmiədzin bölgələrini əhatə edirdi. A.Xatisyan ermənilərə verilən torpaqların az olduğunu, həmin sərhədlərin türk və erməni xalqları arasında həmişə düşmənçiliyə yaradacağını bildirdi. Göstərdi ki, Qafqaz müsəlmanlarının yaşadıqları ərazinin çox az bir hissəsi onların sərəncamına verilsə, müsəlmanlarla münasibətləri yaxşılaşacaq, bu ərazilərdə müsəlmanların hüquqları onlar tərəfindən müdafiə olunacaq.

Şagird Gülər: -Onun dediklərini sərf-nəzər edən Vehip paşa ermənilərə bir qədər çox ərazi qalsın deyə, Ermənistan ərazisində yaşayan müsəlman əhalinin Türkiyəyə köçürülməsi təklifini irəli sürdü. Beləliklə, Ermənistan ərazisində yaşayan müsəlman əhalisi Türkiyəyə köçürülməsə də, Ermənistan dövlətinin ərazisi Azərbaycanın torpaqları hesabına 20 min kvadrat kilometr artaraq 29,7 min kvadrat kilometrə əhatə etdi.

Şagird Haqverdi: -Azərbaycan Milli Şurasının 28 üzvündən yalnız 16 nəfəri həmin təklifə tərəfdar çıxdı. 1 nəfər əleyhinə səs verdi, 3 nəfər bitərəf qaldı. Müzakirələr və iştirakçıların səsverməsi nəticəsində İrəvan şəhərinin siyasi mərkəz olaraq ermənilərə verilməsi qərara alınmışdı.

Şagird Təravət: -Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Baş naziri Fətəli xan Xoyski 1918-ci il mayın 29-da Xarici İşlər naziri Məmməd Həsən Hacınskiyə yazdığı məktubda bildirirdi: "Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək

və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

Azərbaycan Milli Şurasının həmin il iyunun 1-də keçirilən iclasında bu məsələ yenidən gündəliyə daxil edildi. Bu dəfə qərara qarşı çıxıldı.

Şagird Nazənin: -Siyasi elmlər üzrə fəlsəfə doktoru Z. Əliyev öz tədqiqatlarında həmin məsələlərin üzərində ətraflı dayanmışdır.

Şagird Mətanət: -Tarixi araşdırmalardan bizə məlum olur ki, ermənilərin himayə edilməsi siyasətinin əsasını rus çarı I Pyotr qoymuşdur. I Pyotrun siyasətinə sadiq qalan sonrakı rus çarları və Sovet Rusiyası həmin siyasəti dəstələmiş, davam etdirmişlər. Belə ki, II Yekaterina ermənilərin xüsusi himayə edilməsi ilə bağlı əmr vermiş (1776), çar I Aleksandr general Sisyanova məktubunda ermənilərə isti münasibətini göstərmişdir: "Nə olursa-olsun, ermənilər Azərbaycanın bu və ya digər xanlıqlarında məskunlaşdırılmalı və onlardan istifadə olunmalıdır (1802)".

Şagird Xalidə: -Çar I Nikolayın əmrinə əsasən, 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqlarının inzibatı ərazisində müvəqqəti "erməni vilayəti" yaradıldı, İrəvan (Yerevan) şəhəri paytaxt seçildi. Həmin il Marağa şəhərindən 40 min erməni - İrəvan xanlığının, 40 min erməni - Dağlıq Qarabağ ərazisinə köçürüldü.

Şagird Aybəniz: -İrəvanın Ermənistana “hədiyyə edilməsi” ideyası hələ 1912-ci ildə gündəmə gəlmişdi. Böyük dövlətlər ermənilərə söz vermişdilər ki, onların Türkiyə ərazisində dövlət qurmalarına kömək göstərəcəklər. Fəqət sonradan onlar öz sözlərinə əməl etmədilər. Bu zaman Azərbaycan torpaqlarında paytaxt qurulması ideyası irəli sürüldü. A. Arakelyan bu barədə yazırdı: "Elə bir məqam gəlib çatmışdı ki, bütün sivilizasiyalı dünya, xüsusilə də Rusiya "erməni məsələsi"nin həllini öz üzərinə götürməliydi. 1912-ci ildə erməni burjuaziyası və ziyalıları Tiflisdə toplanaraq "erməni məsələsi"nin dünya siyasətçilərinin diqqət mərkəzində olacağını və Rusiya hökumətinin ermənilərə xoş niyyətlərini bildirəcəyini nəzərə alaraq, qarşıda dayanan ümummilli məsələlərin həll edilməsi üçün bir araya gəlməyi təklif etdilər. Oktyabrın sonunda ermənilərin I ümummilli qurultayı çağırıldı. Bu qurultaya Tiflisdən, Bakıdan, Naxçıvandan, Axalkələkdən, İrəvandan, Armavirdən, Batumidən nümayəndələr gəldilər. Qurultay qərara aldı ki, ermənilərin yaşadığı bütün ərazilərdən nümayəndələr seçilsin və yeni qurultay çağırılsın. Qurultayda "erməni məsələsi" ilə əlaqədar daimi işlək orqan yaradıldı: 7 nəfərdən ibarət müvəqqəti büro seçildi (S. Arutyunyan, A. Xatisyan, A. Kalantar, A. Arakelyan, A. Poqosyan, O. Tumanyan, N. Aqbalyan). Büro gündəlik cari işləri və noyabrın 25-də Tiflisdə keçiriləcək yeni qurultaya hazırlıq işlərini həll edəcəkdin (3).

Şagird Gülçöhrə: - Ermənilər İrəvanı paytaxt olaraq ələ keçirdikdən sonra Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinə öz iddialarını davam etdirdilər. Fətəli xan Xoyski Məhəmməd Əmin Rəsulzadəyə müraciətlə yazırdı: “Əgər ermənilər Qarabağın dağlıq hissəsinə iddialarından vaz keçməsələr, onda biz İrəvan şəhərini onlara güzəştə getməkdən imtina edəcəyik”.

Şagird Nəsibə: -Paris Sülh Konfransının təşəbbüskarı, Avropa müharibəsində zəfər qazanmış, Prezident Vilson və onun tərəfdarları hər üç Qafqaz respublikasının ən mühüm vəzifəsini müəyyənləşdirdi: siz dövlətinizi yaradın, sərhədlərini müəyyən edin, paytaxtlarınızı yaradın, biz də sizin müstəqilliyiniz haqqında düşünək.

Şagird Sevinc: -Azərbaycan Milli Şurası, yaranmış vəziyyəti nəzərə alaraq, İrəvanı paytaxt olaraq Ermənistana verdi. Burada mühüm mənafeyinin birisi güzəştə gedilirdisə, daha və son dərəcə zəruri bir mənafe – Azərbaycanın müstəqilliyini elan və taleyini həll etmək mümkün olurdu.

Əslində Azərbaycan Milli Şurası şifahi razılaşmaya əsasən İrəvanı Ermənistana ”hədiyyə” vermişdir. İrəvan Ermənistan dövlətinə yox, Ermənistan Federasiyasına siyasi mərkəz olaraq güzəştə gedilib. İclasda ermənilərlə konfederasiya yaratmaq barədə danışıqlar olub. Ermənistanla Azərbaycanın konfederasiyada birləşməsi məsələsi bir səslə qəbul edilib.

Şagird Rəsul: -Müqavilə Batumidə imzalandı. Bu anlaşma Ermənistanın müstəqilliyini tanıyan ilk beynəlxalq sənəd idi. Ermənistanın müstəqilliyini tanıyan ilk dövlət məhz Türkiyə oldu. Müqaviləyə görə, Ermənistanın ərazisi 9 min kv. km, əhalisi 326 min nəfərdən ibarət idi. Ərazisi Basarkeçər quberniyası (Nor Bəyazid), İrəvan quberniyasının 3/5 hissəsi, Üçmiədzinin bir hissəsi, İsgəndərunun bir hissəsini özündə birləşdirdi. Ermənistan əhalisinin 230 min nəfəri erməni, 80 min nəfəri müsəlman, 5 min nəfəri yezidi kürd və 11 min nəfəri başqa millətlərdən ibarət idi.

Şagird Aynur: -Ermənistan-Türkiyə danışıqlarında (Batumi, may 1918-ci il) Türkiyə tərəfinin bəyanatındakı diqqətəlayiq maddələr bunlardır:

**Maddə 5.** Ermənistan Respublikası öz əraziləri daxilində heç bir qanunsuz silahlı dəstələrin formalaşmasına imkan verməyəcək və bu ərazilərdən qonşu dövlətlərin ərazisinə qanunsuz silah keçirilməsinin qarşısını alacaq;

**Maddə 6.** Ermənistan Respublikası ərazisində yaşayan müsəlman əhalisinin dininə, adət-ənənələrinə hörmət ediləcək. Müsəlmanlar digər millətlərlə yanaşı, eyni hüquqa malik olacaq, öz dillərində danışıb, təhsil ala biləcəklər.

**Maddə 11.** Ermənistan Respublikasının hökuməti bu Müqaviləni imzaladıqdan sonra Bakı şəhərini tərk edəcək və orada yerləşən silahlı qüvvələrini bütünlüklə çıxaracaq. Erməni silahlı qüvvələri şəhərdən çıxdığı zaman Bakı daxilində heç bir çaxnaşmaya yol verməyəcəkləri barədə öhdəlik götürür.

Şagird Rəhimə: - Bəyanatın dördüncü maddəsi Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Həmin maddədə deyilirdi ki, Azərbaycan Respublikası hökuməti tərəfindən tələb edildiyi təqdirdə, Osmanlı hökuməti ölkədə qayda-qanunu (intizam) və daxili asayişi təmin etmək və möhkəmləndirmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz öhdəsinə götürür (4).

Fəqət az keçmiş ermənilər Batumi razılaşmanın şərtlərini pozdular – azərbaycanlılarla münasibətləri yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirib dözülməz həddə çatdırdılar. Onlara qarşı soyqırımı siyasətini gücləndirdilər (5).

Şagird Səidə: - "Azərbaycan" (rusca) qəzeti 29 iyun-1 iyul 1919-cu il tarixlərində dərc edilmiş "Ermənistanda müsəlmanların vəziyyəti" məqaləsində (9) İrəvan şəhərinin azərbaycanlı əhalisinin faciəli vəziyyəti haqqında yazırdı: "Ermənistan Respublikasında müsəlmanların vəziyyəti faciəvidir. İrəvanda gözəl evlərin və bağların böyük əksəriyyəti müsəlmanlara məxsus idi… Türk qoşunları İrəvana yaxınlaşdığı zaman şəhərin müsəlman əhalisi nədənsə qorxaraq şəhəri tərk etmişdi. Onların malına, mülkünə Türkiyədən olan erməni qaçqınlar sahib çıxmışdılar. Ermənistan hakimiyyətini qəbul edən müsəlmanlar şəhərə geri qayıdarkən yollarda erməni silahlıları tərəfindən tamamilə qarət edilmişdilər… Varlı bağlara, gözəl evlərə malik müsəlmanları erməni qaçqınlar öz evlərinə buraxmadıqlarından qışdan bu yana məscidlərdə sığınacaq tapmışlar… Ermənistan hökuməti minlərlə qarət edilmiş, ac-yalavac, xəstə müsəlmanları açıq havada yaşamağa məcbur edir. Müsəlmanların çəkdiyi işgəncələri təsvir etmək çətindir. Çoxları buna dözmür və dəli olurlar… Müsəlmanların evlərini zəbt edən ermənilər, onlardan külli miqdarda vəsait aldıqdan sonra evlərini qaytarır və müsəlmanlar bundan sonra sığındıqları məscidlərdən evlərinə qayıda bilirlər. Ermənistan hökuməti qəsdən və düşünülmüş surətdə erməni qaçqınları müsəlman məhəllələrində və evlərində məskunlaşdırır".

Şagird Ahu: -Araşdırmalar, mənbələrlə tanışlıq göstərir ki, Batum müqaviləsində İrəvanın siyasi mərkəz kimi Ermənistana verilməsi, bunun əvəzində erməni Milli Şurası Yelizavetpol quberniyasının dağlıq hissəsinə, indiki Dağlıq Qarabağa olan iddialarından əl çəkməsi öhdəliyi əslində razılaşma müqaviləsində öz ifadəsini tapmamışdır: İrəvan Ermənistana erməni Milli Şurası ilə Azərbaycan Milli Şurası arasında centlmen razılaşması əsasında güzəştə gedilib. Yəni bu məsələ hüquqi əsasa malik deyildir. Odur ki, Azərbaycan istənilən vaxt Batumi müqaviləsindən imtina edə və Azərbaycan Milli Şuranın 29 may 1918-ci ildə gəldiyi qərarı, yəni İrəvanın Ermənistana verilməsinə dair qərarının ləğv olunması ilə əlaqədar məsələ qaldıra bilər.

Şagird Zülfiyyə: -Üzeyir Hacıbəylinin ingilis generalı Tomsonla söhbəti maraq doğurur. Bu dialoq son dərəcə böyük tarixi əhəmiyyət daşıyır. Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasətinin milli dəyərlər üzərində bərqərar etdindən xəbər verir:

- Cənab general, biz Qarabağa 30 minlik qoşun göndərib torpaqlarımızı azad edəcəyik.

- Bu, mümkün olan iş deyil.

- Qarabağda ermənilər qanuni hökumətə qarşı qiyam qaldırıb. Əgər İngiltərədə bir dəstə dövlətə qarşı qiyam qaldırsa, nə edərsiniz?

- Bu bəllidir, biz qiyamı yatırarıq.

- İcazə verin, biz də gedib qiyamı yatıraq, torpaqları azad edək.

-Gedin, azad edin.

Şagird Həmidə: -Həmin danışıqdan sonra AXC Andranikin, Dronun qoşununu darmadağın edib, onları Qarabağdan qovub, beləliklə, öz ərazisinin azadlığına müvəffəq olub. Fəqət 1920-ci ilin aprelində Azərbaycan işğal olundu, Azərbaycan Demokratik Cümhuriyyətini devirdilər. Həmin ilin noyabrında Zəngəzur Ermənistana verildi.

Beləliklə, İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi barədə həm 4 iyun 1918-ci il tarixli Batum müqavilələri, həm də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı öz hüquqi qüvvəsini itirib. Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi haqqındakı qərarına yenidən baxılması, həmin qərar qüvvədən salınması ilə bağlı hüquqi baxışlar icra etmək mümkündür.

Başqa sözlə, "Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı, əslində, öz hüquqi qüvvəsini itirib. Bir faktı nəzərinizə çatdıraq ki, beynəlxalq müqavilələr bir qayda olaraq 99 illik bağlanır" (6).

Müzakirə gedişində aşağıdakı fikirlər də səsləndi:

Şagird Sevinc: -İrəvanın ermənilərə güzəştə gedilməsi ilə bağlı olan qərar siyasi baxımdan qəbuledilməz idi. İrəvan azərbaycanlılarının soyqırımına başlandı. Bu, bir tərəfdən daşnak (1918-20), digər tərəfdən Sovet (1920-91) hökumətinin ermənilərin arzu və istəklərinə, Rusiyanın siyasi məqsədlərinə rəğmən planlaşdırılan soyqırımı idi.

Şagird Gülər: -İrəvan ermənilərə "pay" veriləndə Ermənistan milli şurasının qarşısına bir sıra şərtlər qoyulmuşdu. Ermənistan milli şurası həmin şərtlərin heç birini yerinə yetirmədi. Erməni hökuməti Tiflisdən İrəvana köçən kimi İrəvanda və Azərbaycanın başqa əzəli torpaqlarında soydaşlarımıza qarşı qırğınlar, vəhşiliklər baş alıb getdi.

Şagird Aynur: -Azərbaycan tolerant ölkədir. Ölkələr buraya gəlib tolerantlığı qeyd edirlər. Pedaqogika üzrə fəlsəfə doktoru İ.B. Əmirəliyeva "Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması" mövzusunda dissertasiyasında yazır: "Ölkəmizdə tolerantlıq dövlət siyasətinin üzvi tərkib hissəsi hesab olunur. Məhz buna görə də bu istiqamətdə bir sıra beynəlxalq tədbirlər Azərbaycanda özünə yer alır. Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə təşkil olunan "XXI əsr: ümidlər və çağırışlar" devizli Beynəlxalq Humanitar Forumu deyilənlərə əyani sübutdur. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxış edən respublikamızın Prezidenti İlham Əliyev göstərib ki, "bu forumun Bakıda keçirilməsi təsadüfi deyil. Çünki Azərbaycan qədim dini və milli tolerantlıq ənənələrinə malikdir. Prezident bu fenomenə münasibətini belə ifadə etmişdir: "İndi mədəni müxtəliflik, çoxmədəniyyətlilik məsələləri geniş müzakirə olunur. Və əgər bu gün kimsə çox mədəniyyətliliyə qarşı çıxırsa, bu halda soruşmaq lazımdır ki, o, bunun əvəzində nə təklif edir? Özünü təcrid etmənimi?" Və ya: "Müxtəlif millətlərin və dinlərin nümayəndələri həmişə Azərbaycanda bir ailə kimi yaşayıb və dövlətin bərabər müdafiəsindən istifadə ediblər. Biz istəyirik ki, bizim təcrübəmiz öyrənilsin və başqa ölkələrdə maraq doğursun, çünki bu, nadir təcrübədir" (7, 6).

Şagird Lamiə: -Ermənistanda 1 nəfər azərbaycanlı qalmadığı halda Azərbaycanda 30 mindən artıq erməni dinc şəraitdə yaşayaraq, fəaliyyət göstərir.

Şagird Gülçöhrə əraziləri işğal olunmuş rayonlar üzrə məcburi köçkünlərin sayı ilə bağlı aşağıdakı məlumatları diqqət mərkəzinə gətirdi (8):

| Sıra № | Rayonun adı | Ərazinin işğal tarixi | Məcburi köçkünlərin sayı | |
|---|---|---|---|---|
| | | | ailə | nəfər |
| • | Xocavənd | 02.10.1992 | 2852 | 11333 |
| • | Xocalı | 26.02.1992 | 3846 | 14406 |
| • | Şuşa | 08.05.1992 | 6861 | 27136 |
| • | Laçın | 18.05.1992 | 19151 | 72298 |
| • | Kəlbəcər | 02.04.1993 | 20556 | 70574 |
| • | Ağdam | 23.07.1993 | 35247 | 144406 |
| • | Cəbrayıl | 23.08.1993 | 16294 | 66833 |
| • | Qubadlı | 31.08.1993 | 9146 | 34945 |
| • | Füzuli | 23.08.1993 | 28506 | 115992 |
| • | Zəngilan | 29.10.1993 | 10605 | 38907 |
| • | Cəbhə xəttinə yaxın yaşayış məntəqələrindən geri çəkilən əhalinin sayı | | 54837 | 192120 |
| CƏMİ: | | | 207901 | 788950 |

Beləliklə, tədqiqat göstərdi ki, bu tipli müzakirələr yuxarı sinif şagirdlərinin vətəndaşlıq mövqelərini üzə çıxarır, onlarda Vətənin təəssübünü çəkmək, onu sevmək tələbatı, düşmənə nifrət hissləri, mübarizlik yaradır. Son nəticədə onlar fəal vətəndaşlıq mövqeyinə yiyələnirlər.

**Problemin aktuallığı.** Söhbətlərə X-XI sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmağın vasitəsi kimi yanaşılır.

**Problemin yeniliyi.** X-XI sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmaq baxımından söhbətlərdən istifadə təcrübəsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmaq baxımından söhbətlərdən səmərəli istifadə ilə bağlı sinif rəhbərləri və fənn müəllimlərinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Stephen Holmes, "Collapse Legacies Cultural or State? The Dilemma probing Postcommunist", in Michael Mandelbaum (ed), Postcommunism: Four Perspectives (New York): Council on Foreign Relations, 1996.
2. Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топогравическом и финансовом отношениях (ОРВЗ) / Составил Легкобытов, IV. СПб., 1836.
3. Киракосян Дж. Младотурки перед судом истории. Ереван. Айастан, 1986.
4. "Известия Бакинского Совета", 1912, №: 220.
5. ATASE, A. 4/3671, K. 2917, D. 302, F. 1-166.
6. Ermənistanda müsəlmanların vəziyyəti. "Azərbaycan" (rusca) qəzeti, 1919, 29 iyun-1 iyul
7. http://axar.az/news/gundem/96158.html
8. İ.B. Əmirəliyeva. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: Ped.ü.fəls.dok. ... dis. Bakı, 2016.
9. İşğal olunmuş ərazilər haqqında Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin məlumatı. http://www.refugees-idps-committee.gov.az/az/pages/16.html

**Э.Гусейнова**

## ИЗ ОПЫТА ИСПОЛЬЗОВАНИЯ БЕСЕД С ТОЧКИ ЗРЕНИЯ ФОРМИРОВАНИЯ АКТИВНОЙ ГРАЖДАНСКОЙ ПОЗИЦИИ УЧАЩИХСЯ X-XI КЛАССОВ

### *РЕЗЮМЕ*

В представленной статье рассматриваются беседы, проводимые во время внеклассных мероприятий в общеобразовательных школах, как средство формирования и развития гражданской позиции учеников X-XI классов. Освящаются вопросы создания армянами, не имеющими государственности, государства и избрания столицей Еревана. Статья будет полезна классным руководителям и учителям-предметникам при эффективном использовании бесед с точки зрения формирования активной гражданской позиции у старшеклассников.

**E. Huseynova**

## FROM THE EXPERIENCE OF USING THE MISTRESS FROM THE POINT OF VIEW OF THE FORMATION OF ACTIVE CIVILIAN POSITION OF STUDENTS OF X-XI CLASSES

### *SUMMARY*

This article discusses conversations held during extracurricular activities in general schools, as a means of forming and developing the civic stand of students of the X-XI classes. The creation of Armenians, which do not have statehood, the state and election as the capital of Yerevan, is being consecrated. The article will be useful to class teachers and subject teachers in the effective use of interviews in terms of forming an active civic position in high school students.

**Redaksiyaya daxil olub:** 01.02.2018